sürətli sənədləşdirmə üsulları təqdim etmək üçün bizneslər üçün “bir pəncərə” prinsipi çərçivəsində elektron xidmətlərdə elektron eyniləşdirmə (ASAN İmza) istifadə edilməyə başlandı və biznes yoxlamalarına hökumət tərəfindən moratorium qoyuldu.

Azərbaycanın yüksək potensiallı insan kapitalına əsaslanan inkişaf modelinə keçməsi (Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi) üçün özəl sektor iqtisadiyyatında qadınların mövqeləri gücləndirilməlidir. Bu qlobal tendensiyanı əks etdirir: McKinsey Global İnstitutunun araşdırmalarına əsasən, qadınların iqtisadi sektorda kişilərlə bərabər iştirakı 2025-ci ilədək qlobal ÜDM-ə 28 trilyon dollara qədər (və ya 26%) əlavə gəlir gətirə bilər.

**Ədəbiyyat:**

1. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı. 2006

2.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi .Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

4. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı .Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

## PUL HESABLAŞMALARI VƏ ONUN PRİNSİPLƏRİ

*Kərimova Mehriban Allahverən qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Pul dövriyyəsinin tərkib hissələri olan nağd və nağdsız pul dövriyyəsi arasında kəskin hədd qoymaq olmaz. Dövriyyədə onlar bir-birindən əsasən nağd pulların iştirakına görə fərqlənsələr də bir-biri ilə sıx əlaqədədirlər. Bu əlaqə zamanı pulların nağdsız dövriyyədən nağd dövriyyəyə və əksinə çevrilməsi prosesi yaranır. Pulun belə hərəkəti pul dövriyyəsinin bütövlüyünü göstərir. Görülmüş iş və göstərilmiş xidmətlərin dəyəri, mal-material qiymətlilərinin satışı nağdsız ödənilməsi zamanı müəssisənin bankdakı hesabına daxil olan nağdsız vəsaiti istehsal işçilərinin əməyinin ödənilməsinə yönəldikdə və s. hallarda nağd pula çevrilir. Nağd dövriyyənin nağdsız dövriyyəyə çevrilməsi prosesi isə nağd pulla əhaliyə satılmış malların, əhaliyə göstərilmiş pullu xidmətlərin dəyərinin, mənzil-kommunal xərclərinin ödənilməsi və s. zamanı baş verir. Göstərilən yollarla müəssisənin kassasına daxil olan nağd pul vəsaitləri müəssisənin hesabına daxil edilmək üçün banka verilir. Müəssisənin hesabına daxil olan həmin nağd pullar, nağdsız hesablaşmaların aparılmasına zəmin yaradır və nağdsız hesablaşmaları apamıaq üçün istifadə olunur. Nağdsız hesablaşmalar sistemi sənəd dövriyyəsində istifadə olunan hesablaşma prinsipləri,

forma və üsullarını özündə əks etdirir. Nağdsız hesablaşmalar aşağıdakı qurumlar arasındakı hesablaşmaları özündə cəmləşdirir:

- kredit təşkilatlarında hesabı olan müxtəlif mülkiyyət formalı müəssisə, idarə və təşkilatları
- kreditin alınması və ödənilməsi ilə əlaqədar hüquqi və fiziki şəxslərlə banklar arasındakı
- əməkhaqqı və qiymətli kağızlar üzrə gəlirlərin ödənilməsi üzrə hüquqi şəxslər ilə fiziki şəxslər
- vergilərin, yığımların və digər məcburi ödənişlərin dövlət xəzinəsinə ödənilməsi və eləcə də büdcə vəsaitinin alınması üzrə fiziki və hüquqi şəxslər ilə dövlətin xəzinəsi arasında.

Bank təcrübəsində aşağıdakı ödəniş üsullarından istifadə olunur:

- pul vəsaitlərinin ödəyicinin hesabından alıcının hesabına köçürülməsi
- ödəyicilərin və vəsait alanların bir-birilə olan qarşılıqlı borclarının üzləşməsi (zaçotu) nəticəsindəki üzləşməyən məbləğlərin müvafiq hesaba köçürülməsi
- ödəyicinin xüsusi yaradılmış depozit hesabındakı vəsaitdən vəsait alana təminatlı ödəniş.

Ödəniş növlərinə daxildir: məbləğin tam ödənişi, məbləğin hissəli ödənişi, qarşılıqlı borcların qalığı üzrə ödənişlər. Nağdsız hesablaşmaların aparılmasında bazar iqtisadiyyatının tələblərinə cavab verən aşağıdakı prinsiplər əsas götürülür:

1. Nağdsız hesablaşmalar müştərilərə vəsaitlərin saxlanması və istifadəsi üçün bankda açılmış hesablar vasitəsilə aparılır
2. Hesablardan vəsait hesab sahiblərinin sərəncamı ilə onlar tərəfindən müəyyən olunan növbəlik və hesabdakı vəsait qalığı müqabilində həyata keçirilir
3. Bazar subyektləri tərəfindən bankın müdaxiləsi olmadan nağdsız hesablaşma formalarının seçilib təsərrüfat müqavilələrində əks etdirilməsi
4. Ödənişin müddətli olması
5. Ödənişin təminatlı olması

Bankda hesabın açılması həmin subyektin hüquqi şəxs kimi tanınması deməkdir. Belə hesaba malik olan şəxs bankın bütün xidmətlərindən istifadə etmək hüququ əldə edir. Hesablardan vəsaitin silinməsinə müştəri müxtəlif formalarda sərəncam verə bilər:

- hesabdan vəsaitin silinməsi haqqında sərəncam əks olunan hesablaşma sənədinin yazılması və banka təqdim edilməsi
- kreditor tərəfindən banka təqdim olunan hesablaşma sənədinin ödənişinə razılıq (aksept).

Müştərinin razılığı olmadan onun hesabından pul vəsaitinin silinməsi məhkəmənin qəran ilə, qanunla və ya da bank ilə müştəri arasındakı müqavilə əsasında aparıla bilər.

Bazar subyektlərinin nağdsız hesablaşma formalanın seçə bilmək prinsipi bazar iqtisadiyyatının tələblərindən irəli gəlir. Bu prinsip eləcə də bazarın bütün subyektlərinin iqtisadi müstəqilliyini təmin edir və münasibətlərin nəticələrində maddi məsuliyyətin yüksəldilməsinə gətirib çıxarır. Bu prinsip ödəyicini hesablaşma əməliyyatının öncül obyektinə çevirir. Belə ki. ödənişə təşəbbüs ödəyicidən asılı olur ki, bu da iqtisadiyyatda bazar münasibətlərinin tələblərinə uyğundur. Ödənişin

müddətli olması o deməkdir ki, ödəniş ticarət əməliyjyatının başlanmasından öncə, dərhal və ya ticarət əməliyyatı başlandıqdan sonra müqavilədə göstərilən müddətə müvafiq aparılır.

Bu prinsipin, iqtisadi mahiyyəti ondadır ki, pul vəsaitini alanı, pulun onun hesabına daxil edilməsi deyil, pulun əvvəlcədən danışılmış müddətdə daxil edilməsi maraqlandırır. Ödənişin müddətliiik prinsipi ödənişin dəqiq müddəti müəyyənləşdikdən sonra müəssisəyə özünün pul dövriyyəsini nizamlaşdırmaq, borc vəsaitlərinə olan ehtiyacı müəyyənləşdirmək və öz balansının likvidliyinin təmin edilməsinə imkan yaradır. Ödənişin vaxtmda aparılmaması o deməkdir ki, ödəyici təşkilat qanunsuz olaraq başqa müəssisənin (malgöndərənin) vəsaitindən istifadə etmiş olur. Ödənişin ləngidilməsinə görə ödəyici təşkilat məsuliyyət daşıyır. Əmtəə əməliyyatlarına görə hesablaşmalar müddətlilik baxımından aşağıdakı formalarda olur:

- vaxtından əvvəl ödəniş - pul öhdəliklərinin müqavilədə göstərilən müddətdən tez yerinə yetirilməsi. Mallann yola salınması, xidmətlərin göstərilməsi və ya işlərin görülməsindən əvvəl olan ödəniş peşin ödəniş və ya əvvəlcədən ödəniş.
- ticarət əməliyyatı yerinə yetirildikdən dərhal sonrakı ödəniş - mal göndərildikdən, işlər göriildükdən sonra aparılan ödəniş.

Müəyyən olunmuş müddətdə pul öhdəliklərinin ödənilməsi mümkün olmadıqda ilkin ödənişin müddəti uzadıla bilər. Vaxtı keçmiş ödəniş dedikdə - ödənişin vəsaitin olmaması və ya ödəniş üçün kredit mümkünsüzlüyü ilə əlaqədar ödənişin apanlmaması başa düşülür. Ödənişin təminatlılığı prinsipi dedikdə, ödəyicinin və ya ödənişə təminat verənin vəsait alanın qarşısında öhdəlilklərin yerinə yetirilməsi üçün likvidli vəsaitin mövcudluğu başa düşülür. Ödəniş ya ödəyicinin vəsaiti və ya da onun barıkdan kredit almaqla ödənişi təmin etməsi deməkdir. Ödənişin təminatlılığı ödənişə zəmanət verməklə təsərrüfatda ödəniş intizamını möhkəmləndirir. Normativ aktlara uyğun olaraq müəssisələr banklarda məhdudiyyətsiz hesablar aça bilərlər.

Hesab pul vəsaitlərinin hərəkətini əks etdirən alətdir və ondan mühasibat uçotu və hesabatının aparılması üçün istifadə edilir. Bu hesablarda müəssisələrin öz vəsaitləri və borc aldığı vəsaitlər saxlanılır.

### Ədəbiyyat:

1. Ş. Ə. Abdullayev. R.V.Əsgərova. Bank işi. Bakı: Çaşıoğlu, 2009.
2. M.M.Bağırov. Banklar və bank əməliyyatları. Bakı: Nurlan, 2003.
3. R.Bəşirov. Bank işi. Bakı: «MBM», 2016.
4. E.Sadıqov. Bank əməliyyatları. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010.
5. Z.Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı: Azərnəşr. 2013.
6. Z.Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2015.